UOT 347

# ƏCNƏBİ FİZİKİ VƏ HÜQUQİ ŞƏXSLƏRİN ƏMLAK HÜQUQLARININ BEYNƏLXALQ HÜQUQDA QORUNMASI

**R.A.MİRZƏYEV**
***Bakı Dövlət Universiteti***
***ruslan_mirzayev@yahoo.com***

*Beynəlxalq hüququn iki fərqli sferası, beynəlxalq investisiya hüququ və beynəlxalq insan hüquqları əcnəbi fiziki və hüquqi şəxslərin əmlak hüquqlarının müdafiəsi üçün təminatlar müəyyən etmişdir. Beynəlxalq hüququn bu sferalarının xüsusiyyətlərindəki fərqlilik onların müdafiə təminatlarında da öz əksini tapmışdır. Əcnəbi şəxslərin öz əmlaklarını müdafiə etmək üçün istinad edə biləcəkləri hüquq sferaları arasındakı əsas fərqlər bu məqalədə araşdırılmışdır.*

**Açar sözlər:** əmlak hüquqları, xarici investisiyalar, beynəlxalq insan hüquqları, beynəlxalq investisiya hüququ, əmlak hüquqlarının müdafiəsi

Əmlak hüquqları insan hüquq və azadlıqları sırasında özünəməxsus mövqeyə malikdir. Məşhur filosof Fredrix Hayekin də qeyd etdiyi kimi, şəxsi əmlak digər azaqlıqların qorunması üçün ən vacib təminat vasitəsidir (1). Bazar iqtisadiyyatının bərqərar olması və sivil cəmiyyətin təşəkkül tapması üçün hər bir şəxsin malik olduğu xüsusi mülkiyyətin qanunla qorunması xüsusi əhəmiyyət kəsb edir. AR Konstitusiya Məhkəməsinin “AR Cinayət Məcəlləsinin 32-ci maddəsinin AR Konstitusiyasının 29-cu maddəsinin IV hissəsinə uyğunluğu haqqında” 12 yanvar 1999-cu il tarixli qərarında qeyd edildiyi kimi, mülkiyyət hüququ hamılıqla tanınan əsas hüquqdur və ali insani dəyərləri özündə əks etdirən demokratik cəmiyyətin, hüquqi dövlətin təməl daşlarından biri hesab edilir. Mülkiyyət (əmlak) hüququnun əsas insan hüquqlarına aid edilməsini nəzərə alsaq, bu hüququn müdafiəsinin insan hüquqlarının müdafiəsi kontekstində həyata keçirilməsi şübhəsizdir. Bu baxımdan qeyd etmək lazımdır ki, əmlak hüquqları o halda real dəyər kəsb edir ki, həmin hüquqlar etibarlı şəkildə müdafiə edilir. Qeyd olunan müdafiə isə hər bir şəxsin müdafiə hüququna əsaslanır. Əmlak hüquqlarının müdafiəsi hüququ öz başlanğıcını klassik formula olan *“azadlıq, həyat və mülkiyyət”*dən götürür. Şəxsin əmlak hüquqlarını mülki-hüquqi münasibətlər çərçivəsində əldə etməsinə baxmayaraq, o, şəxsiyyətin nail olduğu, üzərində sərəncam vermək və

ondan istifadə etmək imkanının müdafiəsi ünsürü kimi çıxış edir. Lakin əmlak öz-özlüyündə müdafiə olunmur. Müdafiə şəxsin əldə etdiyi dəyərlərə fərdi münasibətinə yönəlmiş olur (2, 27).

Əcnəbi fiziki və hüquqi şəxslərin əmlak hüquqlarının qorunması isə həm insan hüquqlarının, həm də beynəlxalq ümumi hüququn tənzimetmə predmetinə daxildir. Yəni əcnəbi şəxslərin əmlak hüquqları beynəlxalq hüququn iki fərqli sahəsi ilə qorunur: beynəlxalq investisiya hüququ və beynəlxalq insan hüquqları.

Əcnəbi şəxslərin əmlak hüquqları uzun bir tarixi dövr ərzində beynəlxalq hüquq tərəfindən müdafiə olunmuşdur. İki əsrə yaxındır ki, əcnəbi şəxslərin əmlakının milliləşdirilməsi və rekviziyasına münasibətdə beynəlxalq hüquqda qadağa mövcud olmuşdur (3). İlkin olaraq dövlətlər öz vətəndaş və şirkətlərinin xaricdəki əmlaklarının hərbi və diplomatik vasitələrlə müdafiə etmişdir (4, 10). Hüquqşünaslar dövlətin öz subyektlərinin hüquqlarının xaricdə qorumaq hüququnu tanıyırdılar. Müasir beynəlxalq hüququn banilərindən biri hesab edilən Vattel qeyd etmişdir ki, xarici vətəndaşın hüquqlarını pozan dövlət (aqressor dövlət) birbaşa digər dövlətin maraqlarına toxunur. Digər dövlət ona dəymiş zərərin əvəzini çıxa və aqressor dövləti cəzalandıra bilər. Əks təqdirdə vətəndaş dövlətin əsas təminatlarından biri olan təhlükəsizlik hüququndan məhrum ola bilər (5, 309).

Müstəqil dövlətlər yarandıqdan və suverenlik doktrinası inkişaf etdikdən sonra beynəlxalq adət hüququnun əcnəbi şəxslərin əmlak hüquqlarının milliləşdirilməsi və rekvizisiyası ilə bağlı qadağası dəyişmişdir. Belə ki, hazırda beynəlxalq adət hüququ dövlətlərin öz ərazisində yerləşən əmlakları milliləşdirmək və rekvizisiya etməklə bağlı suveren hüququnu tanıyır. Lakin dövlət xarici əmlakı milliləşdirdikdə və rekvizisiya etdikdə, müvafiq, vaxtlı və effektiv kompensasiyanın ödənilməsi tələb olunur (3).

Beynəlxalq hüquqa əsasən dövlətlər öz subyektlərinin xaricdə yerləşən əmlaklarını müdafiə etmək üçün diplomatik müdafiəyə istinad edə bilərlər. Lakin hazırda xarici investisiyaların qorunması ilə bağlı çoxsaylı sazişlər imzalandığından və bu sazişlər diplomatik müdafiəyə nisbətən daha effektiv və ətraflı müdafiə təmin etdiyindən, klassik mənada diplomatik müdafiə konsepsiyasının əhəmiyyəti və tətbiq edilmə ehtiyacı azalmışdır. Diplomatik müdafiə konsepsiyası hazırda xarici investisiyaların qorunması üzrə çoxtərəfli və ikitərəfli sazişlərin bağlanması ilə özünə yeni ifadə forması tapmışdır (3). Bu sazişlərin əsasında məhz diplomatik müdafiə konsepsiyası durduğundan, əcnəbi şəxslərin əmlak hüquqlarının müdafiəsi məhz beynəlxalq ümumi hüquqla tənzimlənir və dövlətlərarası münasibətlərin predmeti hesab olunur. Yəni beynəlxalq investisiya hüququna əsasən əcnəbi şəxsin əmlakını milliləşdirmiş və ya rekvizisiya etmiş dövlət əcnəbi şəxsin vətəndaşı (subyekti) olduğu dövlət qarşısında məsuliyyət daşıyır. Beynəlxalq investisiya hüququna əsasən əmlak hüquqları pozulmuş əcnəbi şəxs beynəlxalq tribunallarda aqressor dövlətə qarşı yalnız o halda birbaşa iddia qaldıra bilər ki, aqressor

dövlətlə əcnəbi şəxsin məxsus olduğu dövlət arasında saziş mövcud olsun. Başqa sözlə desək, əcnəbi şəxslərə bu hüquq bir individual olduqlarına görə deyil, bir dövlətin vətəndaşı (subyekti) olduqlarına görə verilir.

İkinci Dünya Müharibəsindən sonra əmlak hüquqlarının müdafiəsi sahəsində yeni qaydalar beynəlxalq hüquqda təşəkkül tapmağa başladı. Bu qaydalar insan hüquqlarının bir tərkib hissəsi idi. Belə ki, 1945-ci il tarixli Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi və 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsində insan hüquqlarının beynəlxalq hüquqi tənzimlənməsinin əsası qoyulmuşdur.

Beynəlxalq investisiya hüququndan fərqli olaraq, beynəlxalq insan hüquqları şəxsin hüquqlarını dövlətlərarası münasibətlərin bir elementi kimi deyil, bir individualın hüquqları kimi qoruyur. Bir çox beynəlxalq sazişlər insan hüquqlarının müdafiəsi sahəsində təminatlar müəyyən etmişdir. Bununla yanaşı, insan hüquqlarının qorunması sahəsində beynəlxalq adət hüququnun da qaydaları təşəkkül tapmışdır.

İnsan hüquqlarının qorunmasına təminat verən sazişlərdən biri də BMT-nin Nizamnaməsidir. BMT Nizamnaməsinin əsas məqsədlərindən biri insan hüquqlarına hörmət və riayət olunmasının təmin olunmasıdır (6). Beynəlxalq insan hüquqlarının digər əsas mənbəyi Ümumdünya İnsan Hüquqları Bəyannaməsidir (7). Baxmayaraq ki, ilkin olaraq Bəyannamənin məcburi xarakter daşıması nəzərdə tutulmamışdı (8), sonradan bu Bəyannamə beynəlxalq adət hüququnun bir tərkib hissəsi və beynəlxalq öhdəliyə çevrilmişdir (9, 10). 1968-ci ildə Birləşmiş Millətlər İnsan Hüquqları Beynəlxalq Konfransı bəyan etmişdir ki, Bəyannamə bütün dövlətlər üçün bir beynəlxalq öhdəlikdir (11). Bəyannamə şəxslərin əmlaka malik olma hüququnu tanıyır və şəxslərin mülkiyyət hüququndan əsassız şəkildə məhrum edilməsini qadağan edir (7).

Beynəlxalq adət hüququ ilə yanaşı, beynəlxalq sazişlər və milli qanunvericiliklər bir çox hallarda insan hüquqları (o cümlədən, əmlak hüquqları) üçün adət hüququnda nəzərdə tutulandan daha geniş təminatlar nəzərdə tutur. Avropa İnsan Hüquqları və Əsas Azadlıqların Qorunması Konvensiyasının Birinci Protokoluna əsasən hər bir fiziki və hüquqi şəxsin öz əmlakından dinc istifadə hüququna malikdir və şəxs əmlak hüquqlarından yalnız qanun və beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olaraq məhrum edilə bilər (12). Fiziki və hüquqi şəxslər deyildikdə, həm yerli, həm də xarici şəxslər nəzərdə tutulur. İnsan Hüquqları üzrə Amerika Konvensiyası hər bir şəxsin öz əmlakından istifadə və sahiblik hüququnu tanıyır (13). Amerika Konvensiyasına əsasən şəxs mülkiyyət hüququndan yalnız qanunda nəzərdə tutulmuş formada ictimai maraqlar üçün və ədalət kompensasiya verilərək məhrum edilə bilər (13). İnsan və Xalqların Hüquqlarının Müdafiəsi üzrə Afrika Nizamnaməsi də mülkiyyət hüququnu insan hüququ kimi tanıyır (14).

Həm beynəlxalq adət hüququna, həm də yuxarıda qeyd edilən beynəlxalq sazişlərə əsasən şəxslərin vətəndaşlığının onların insan hüquqlarının müdafiəsinə aidiyyəti yoxdur. Beynəlxalq insan hüquqları həm milli, həm də

xarici şəxslərin əmlak hüquqlarını qoruyur. Bununla yanaşı, beynəlxalq insan hüquqları həcm və ya məbləğindən asılı olmayaraq bütün növ əmlaklar üzərində hüquqları qoruyur: belə əmlak insanın şəxsi evi də ola bilər, nəhəng bir korporasiya da ola bilər. Məsələn, Avropa İnsan Hüquqları Məhkəməsindəki məşhur Yukos işində iddia tələbi Yukos Korporasiyası üzərindəki mülkiyyət hüququnun pozulması idi (15). Adətən insan hüquqları dedikdə, yaşamaq hüququ, ifadə azadlığı, vicdan azadlığı, öz əmlakından istifadə etmək hüququ nəzərdə tutulsa da, beynəlxalq insan hüquqularının inkişafının hazırki mərhələsində dəyəri milyardlarla dollarla ölçülən əmlak (o cümlədən, şirkətlər, zavodlar və s.) üzərində də mülkiyyət hüququ insan hüquqları kimi qorunur.

Beynəlxalq investisiya hüququnun və beynəlxalq insan hüquqlarının konsepsiyaları arasındakı fərq onların verdiyi təminatların dairəsində də öz əksini tapır. Beynəlxalq investisiya hüququnun təminat vasitələrinin dairəsi daha genişdir. Beynəlxalq investisiya sazişləri şəxsin əmlak hüquqlarından məhrum edilməsini qadağan etməklə yanaşı, həmçinin ədalətli rəftar (fair and equitabletreatment), milli rəftar (nationaltreatment), üstünlük verilən dövlət (mostfavorablenationtreatment), stabillik müddəaları, əməliyyatlara məhdudiyyətin qoyulmasına qadağa (prohibitionagainstoperationalrequirements) və digər standartları müəyyən edir. İnvestisiyaların qorunması üzrə beynəlxalq adət hüququ isə kompensasiyasız milliləşdirmə və rekvizisiyanı qadağa etməklə yanaşı, investorlarla ədalətli rəftar (fair and equitabletreatmentstandard) olunmasını tələb edir (16). Bununla yanaşı beynəlxalq investisiya hüququ milliləşdirmə və rekvizisiyaya görə müvafiq, vaxtlı və adekvat kompensasiyanın ödənilməsini tələb edir. İnvestisiyaların qorunması sahəsində olan sazişlər adətən çox effektiv müdafiə vasitəsi olan İnvestisiya Mübahisələrinin Həlli üzrə 1965-ci il tarixli Vaşinqton Konvensiyasına və Xarici Arbitraj Qərarlarının Tanınması və İcrası üzrə 1958-ci il Nyu-York Konvensiyasına istinad edir. 140-dan çox ölkə tərəfindən ratifikasiya olunmuş bu konvensiyalar arbitraj qərarlarının icrası üzrə effektiv vasitədir.

Tarixən belə bir mövqe hakim olmuşdur ki, əcnəbi şəxsə digər bir ölkədə vurulan zərər həmin əcnəbi şəxsin mənsub olduğu dövlətə vurulur. Beynəlxalq hüquqda şəxslər bir individual olaraq hüquqi xarakter (şəxsiyyət) daşımırdılar (16). Əsasən əcnəbi şəxslərin əmlak hüquqlarının müdafiəsi dövlətlərarası münasibətlərin bir elementi idi və hüquqları pozulmuş əcnəbi şəxs həmin münasibətlərin müstəqil subyekti deyildi. Belə ki, əcnəbi şəxslərin əmlak hüquqlarını qorumaq hüququ məhz dövlətlərə məxsus idi. İnvestisiyaların qorunması üzrə hazırki beynəlxalq adət hüququ da həmin prinsipə əsaslanır. Yəni beynəlxalq investisiya hüququ individualın özünün əmlak hüquqlarını şəxsən müdafiə etmək hüququnu tanımır.

Beynəlxalq insan hüquqları isə əcnəbi şəxslərin əmlak hüquqlarının müdafiəsini individual şəxsin hüququ kimi tanıyır. Yəni əcnəbi və ya yerli olmasından asılı olmayaraq şəxslərin əmlak hüquqları universal olaraq qorunur. Beynəlxalq insan hüquqları əcnəbi şəxsləri xarici dövlətlərin vətəndaş və

rezidentləri kimi deyil, bir individual olaraq tanıyır. Şəxslərə beynəlxalq insan hüquqlarının verdiyi təminatlar onların vətəndaşlıqlarından asılı deyil. İnsan hüquqlarının qorunması beynəlxalq ictimaiyyətin marağındadır və ümumbəşər sülhünün əsasıdır (17). Əmlak hüquqları isə insan hüquqlarının ayrılmaz tərkib hissəsidir (18).

Beləliklə, beynəlxalq investisiya hüququndan fərqli olaraq, beynəlxalq insan hüquqlarının predmeti beynəlxalq ümumi hüququn klassik formasına uyğun gəlmirdi. Belə ki, dövlətlərarası münasibətləri tənzimləyən və yalnız dövlətləri subyekt kimi tanıyan beynəlxalq ümumi hüquqdan fərqli olaraq, beynəlxalq insan hüquqları şəxsləri beynəlxalq hüququn subyekti kimi tanıyır. Məhz bu səbəbdən də əcnəbi şəxs öz əmlak hüquqlarını həm öz dövləti vasitəsilə beynəlxalq investisiya hüququna əsasən, həm də bilavasitə şəxsən beynəlxalq insan hüquqlarına əsasən müdafiə edə bilər.

## ƏDƏBİYYAT

1. International Property Rights Index, 2008 Report, Property Rights Alliance (2008), http://www.eseade.edu.ar/ciima/articulos/022508ot-report.pdf
2. İbayev V. Avropa məhkəməsi presedentləri: mülkiyyət hüququ. Bakı: Elm, 2007, 231 s.
3. Surya P Subedi, International Investment Law, Reconciling Policy and Principle (2008)
4. M.Sornarajah, The International Law on Foreign Investment (1994).
5. Emerich de Vattel, Le droit des gens ou les principles de laloinaturelle (vol I, 1758)
6. The Charter of United Nations of 1945
7. The Universal Declaration of Human Rights, The General Assembly of the United Nations, December 10, 1948
8. Michael Van Alstine, The Universal Declaration and Developments in the Enforcement of International Human Rights in Domestic Law, Maryland Journal of International Law (Volume 24:63, 2009)
9. Lacey Glencoragh Loftin, The Conflict over Customary International Law and Human Rights Law: the Resolution of Process, available at: http://www.peacepapers.com/articles/the-conflict-over-customary-international-law-and-human-rights-law-the-resolution-of-process.php
10. Antonio Augusto CancadoTrindade, The Declaration of Human Rights, UN Audiovisual Library of International Law, available at: http://untreaty.un.org/cod/avl/ha/udhr/udhr.html
11. Proclamation of Teheran, Final Act of the International Conference on Human Rights, Article 2, Tehran, 22 April to 13 May 1968, U.N. Doc. A/CONF.32/41 at 3 (1968), available at: *untreaty.un.org/cod/avl/pdf/ha/.../Final_Act_of_TehranConf.pdf*
12. The First Protocol to the Convention for the Protection of Human Rights and Fundamental Freedoms, Art. 1 (Rome, November 4, 1950)
13. American Convention on Human Rights
14. African Charter on Human and Peoples' Rights
15. Former First Section Case of Khodorkovskiy v. Russia, Application no. 5829/04, Judgment (Strasbourg, May 31, 2011).
16. Marcela Klein Bronfman, Fair and Equitable Treatment: And Evolving Standard, Max Planck Yearbook of United Nations Law, Volume 10, 2006, p. 609-680.
17. A. Luini del Russo, International Law of Human Rights: A Pragmatic Appraisal, 9 Wm. & Mary L. Rev. 749 (1968).
18. Francis Cheneval, Property Rights as Human Rights, published in Hernando De Soto, Francis Cheneval, Swiss Human Rights Book (Volume 1, year 2006).

## ОБЕСПЕЧЕНИЕ ПРАВ СОБСТВЕННОСТИ ИНОСТРАННЫХ ФИЗИЧЕСКИХ И ЮРИДИЧЕСКИХ ЛИЦ

**Р.А.МИРЗОЕВ**

### РЕЗЮМЕ

Две различные области международного права, а именно международное инвестиционное право и права человека, обеспечивает иностранных физических и юридических лиц с правом на защиту своих прав собственности за рубежом. Концептуальные различия между этими сферами международного права также вызывают различия в характере защиты предусмотренной в этих областях международного права. В этой статье обсуждаются основные различия в характере защиты предоставляемой в рамках международного инвестиционного права и международных прав человека.

**Ключевые слова:** международное инвестиционное право, права человека, право собственности, защита прав собственности

## PROTECTION OF PROPERTY RIGHTS OF FOREIGN NATURAL AND JURIDICAL PERSONS BY INTERNATIONAL LAW

**R.A.MIRZAYEV**

### SUMMARY

Two different fields of international law, namely international investment law and international human rights, provide foreign natural and juridical persons with the right to protect their property rights abroad. The conceptual differences between these fields of international law also cause difference in the scope and nature of the protection provided under these fields of international law. The main differences in the nature and scope of protection provided under international investment law and international human rights are discussed in this article.

**Key words:** international investment law, international human rights, property rights, protection of property rights